35 (1290) 7-13 sentyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## SLOVAKİYA AZƏRBAYCANDA İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ YENİDƏNQURMA VƏ BƏRPA İŞLƏRİNƏ QATILACAQ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Slovakiya parlamentinin sədri Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub, energetika sahəsində əməkdaşlığın çox yaxşı səviyyədə olduğu qeyd edilib. Bu baxımdan Slovakiyanın "Həmrəylik Halqası" STRING layihəsində iştirakı əlaqələrimizin inkişafında çox mühüm hal kimi dəyərləndirilib.

Slovakiya nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərimizə səfər edəcəyi məmnunluqla qeyd olunub və bunun həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri ilə yaxından tanışlıq üçün yaxşı imkan yaradacağı bildirilib. Ağdam rayonunun Baş Qərvənd kəndində Slovakiya tərəfindən həyata keçiriləcək "Smart village" – "Ağıllı kənd" layihəsinin önəmi vurğulanıb.

Görüşdə Slovakiyanın Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına töhfə verdiyi bildirilib.

Parlamentlərarası əməkdaşlıq məsələsinə toxunularaq Boris Kolların geniş nümayəndə heyəti ilə ölkəmizə səfərinin bu sahədə əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

## RUSİYA AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA MÜNASİBƏTLƏRİN NORMALLAŞDIRILMASI ÜÇÜN SƏYLƏRİNİ DAVAM ETDİRƏCƏK



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.

Görüşdə regionda vəziyyət, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması barədə müzakirələr aparılıb.

Dövlətimizin başçısı Azərbaycanın Qarabağ bölgəsinin erməni əhalisinin nümayəndələrinin reinteqrasiya məsələləri ilə bağlı müzakirələrin aparılması üçün paytaxt Bakıya və ölkəmizin digər şəhərlərinə dəvət olunmasına baxmayaraq, onların bundan imtina etdiklərini diqqətə çatdırıb.

İqor Xovayev Rusiyanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və regionda davamlı sülhün təmin olunması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirib.

## "BİZ TARİXİ ZƏFƏR ÇALARAQ BÜTÜN DÜNYAYA AZƏRBAYCAN XALQININ GÜCÜNÜ, İRADƏSİNİ GÖSTƏRDİK"

"Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb".

Bu barədə Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı bildirib.




"Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq", - deyə dövlətimizin başçısı vurğulayıb.

Torpaqlarımıza qayıtmaq üçün müharibənin yeganə çıxış yolu olduğunu söyləyən Prezident qeyd edib: ***"Biz ədalətli müharibə aparmışıq, biz öz torpağımızda vuruşmuşuq, savaşmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik".***

## AZƏRBAYCAN-MOLDOVA DOSTLUQ VƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN MÜVƏFFƏQİYYƏTLƏ İNKİŞAF ETMƏSİ MƏMNUNLUQ DOĞURUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə həmkarı Maya Sanduya təbrik məktubu ünvanlayıb. Dövlətimizin başçısı təbrik məktubunda Maya Sanduya və bütün Moldova xalqına şəxsən öz adından və Azərbaycan xalqı adından ən səmimi təbriklərini çatdırıb.



***"Xoş ənənələr üzərində qurulmuş Azərbaycan-Moldova dostluq və əməkdaşlıq əlaqələrinin müvəffəqiyyətlə inkişaf etməsi məmnunluq doğurur. Siyasi əlaqələrimizin yüksək səviyyəsi bir sıra sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızı genişləndirmək üçün yaxşı zəmin yaratmışdır.***

***Kişineuda təşkil olunan "Avropa Siyasi Birliyi"nin ikinci Zirvə Toplantısında iştirak etmək məqsədilə Moldovaya səfərim çərçivəsində Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü, ikitərəfli münasibətlərin geniş spektri və əməkdaşlığımızın perspektivləri ətrafında apardığımız danışıqları ən xoş təəssüratlarla xatırlayıram"***, - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident İlham Əliyev əminliklə bildirib ki, Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq əlaqələrinin möhkəmləndirilməsi, xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın dərinləşdirilməsi, birgə fəaliyyətin potensialından tam istifadə olunması naminə səylər bundan sonra da uğurla davam etdiriləcək.

Dövlətimizin başçısı bu əlamətdar gün münasibətilə M.Sanduya möhkəm cansağlığı, xoşbəxtlik, işlərində müvəffəqiyyətlər, dost Moldova xalqına daim əmin-amanlıq və rifah arzulayıb.

## "BÜTÜN DÜNYAYA SÜBUT ETMİŞİK Kİ, HEÇ KİM BİZİM İRADƏMİZƏ TƏSİR EDƏ BİLMƏZ"



"Bütün dünyaya sübut etmişik ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Bunu biz müharibə dövründə göstərmişik, 44 gün ərzində ancaq və ancaq irəli gedərək, düşməni məhv edərək, bayrağımızı qaldıraraq göstərmişik".

Bu sözləri Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib.

Bizə qarşı aparılan kampaniyanın, çirkin təbliğatın iradəmizə təsir edə, bizi yolumuzdan döndərə bilməyəcəyini xatırladan dövlətimizin başçısı vurğulayıb: ***"Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, biz heç kimdən qorxmuruq və bunu göstərmişik, həm döyüş meydanında, həm siyasi müstəvidə. Ermənistanın havadarları bunu nə qədər tez anlasalar, o qədər də Ermənistan üçün yaxşı olacaq və bölgə üçün yaxşı olacaq".***

Azərbaycan xalqının qurub-yaradan xalq olduğunu söyləyən Prezident İlham Əliyev deyib: ***"Laçın şəhərini cəmi 8 ay ərzində qurub-yaratmaq xalqımızın həm istedadını, həm iradəsini göstərir və eyni zamanda, onu göstərir ki, bu torpaqların sahibləri bizik".***

## LAÇIN RAYONUNUN TİMSALINDA BİZ DİRÇƏLƏN AZƏRBAYCAN REALLIQLARINI GÖRÜRÜK

"Xatırlayıram, 50 yaşım tamam olanda mən laçınlılarla Qarabağda, Qarabağın Ağcabədi rayonunda, Taxtakörpü qəsəbəsində görüşmüşdüm və demişdim ki, torpaqlarımız azad olunandan sonra sizin üçün Laçında daha gözəl şərait yaradacağıq və belə də oldu".

Bu sözləri Prezident İlham Əliyev "Laçın Şəhəri Günü" ilə əlaqədar keçirilən bayram tədbirində çıxışı zamanı söyləyib.

Əlli yaşını Ağcabədidə, 60 yaşını Şuşada, Cıdır düzündə qeyd etdiyini xatırladan dövlətimizin başçısı bildirib: ***"Bu gün də Laçın Şəhəri Günündə sizinlə birlikdə bu bayram tədbirlərində iştirak edirəm. Bu böyük xoşbəxtlikdir, mənim üçün, sizin üçün, hər birimiz üçün. Biz xoşbəxt günləri yaşayırıq və əminəm ki, xalqımız bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaq, öz doğma torpağında qurub-yaradacaqdır. Laçın rayonunun timsalında biz dirçələn Azərbaycan reallıqlarını görürük, dirçələn torpaqları görürük".***

# Rəsmi xronika

**25 avqust 2023-cü il.**
Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda "İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər ilə tanış olublar.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Kəlbəcər rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.

***

Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış olub.

***

Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olublar.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışında iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışında iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda "Həkəri Balıq Təsərrüfatı"nın açılışında iştirak ediblər.

**26 avqust 2023-cü il.**
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Laçın rayonunun Zabux kəndində görülmüş işlərlə tanış olublar və burada kənd sakinləri ilə görüşüblər.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Laçın Şəhəri Günü" bayram şənliklərində iştirak ediblər

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində iştirak ediblər.
Dövlətimizin başçısı tədbirdə çıxış edib.

# Milli Məclisdə Azərbaycan və İsrail parlamentlərarası dostluq qruplarının görüşü olub



Sentyabrın 4-də Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anatoliy Rafailov və qrupun üzvləri ölkəmizdə səfərdə olan İsrail-Azərbaycan parlament dostluq qrupunun üzvü Yevgeni Sovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.
Anatoliy Rafailov Azərbaycanla İsrailin dost dövlətlər olduğunu, iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini söyləyib. O, 44 günlük Vətən müharibəsi zamanı İsrailin dəstəyini yüksək dəyərləndirib.
Qeyd olunub ki, ölkələrimiz arasında əlaqələr dərin tarixi köklərə malikdir. Yəhudi xalqının nümayəndələri Azərbaycanda, azərbaycanlılar isə İsraildə uzun illərdir mehriban dostluq şəraitində yaşayır və ictimai-siyasi həyatda fəal iştirak edirlər.
İsrail-Azərbaycan parlament dostluq qrupunun üzvü Yevgeni Sova dövlətlərimiz və xalqlarımız arasında olan dostluq münasibətlərinin məmnunluq doğurduğunu qeyd edib, ölkəsinin müxtəlif sahələrdə Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu söyləyib.

# AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİ BÜTÜN SAHƏLƏRDƏ İNKİŞAF EDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.
Prezident İlham Əliyev Yaşar Gülərin Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin birgə işbirliyi ilə bağlı böyük səylər göstərdiyini və töhfələr verdiyini vurğulayıb, bu işbirliyinin çox yaxşı səviyyədə olduğunu qeyd edib.
Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın Prezident seçiləndən sonra Azərbaycana həyata keçirdiyi ilk dövlət səfərinə toxunaraq, bu səfər zamanı Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışının önəmini vurğulayıb.
Türkiyənin milli müdafiə naziri Yaşar Gülər qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində Azərbaycanın beynəlxalq aləmin önəmli və nüfuzlu üzvünə çevrilməsi böyük qürur hissi doğurur.
Nazir iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin və təmasların əlaqələrimizin daha da güclənməsi işinə çox müsbət təsir göstərdiyini bildirib və azərbaycanlı həmkarları ilə səmərəli qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd edib. Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "RUSİYA CƏNUBİ QAFQAZDA SABİTLƏŞMƏ ÜZRƏ ARDICIL ROL OYNAMAQDA DAVAM EDİR"

"Rusiya Cənubi Qafqazda vəziyyətin sabitləşməsi və münaqişəyə son qoyulması üzrə ardıcıl, çox mühüm rol oynamaqda davam edir". Bu barədə jurnalistlərə RF Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. Kremlin nümayəndəsi qeyd edib ki, Moskva Rusiyanı Cənubi Qafqaz regionundan uzaqlaşmaqda ittiham edən Ermənistanın baş naziri Nikol Paşinyanın fikirləri ilə razı deyil. Əksinə, RF regionu tərk etmək istəmir və bunu edə bilməz. Kremlin nümayəndəsi əmin olduğunu bildirib ki, Rusiya Cənubi Qafqaz regionunda, xüsusən Qarabağda təhlükəsizliyin və sabitliyin qarantı rolunu oynamaqda davam edəcək. O, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları üçtərəfli razılaşmaların əhəmiyyətini vurğulayıb.

# RUSİYA AĞDAM-XANKƏNDİ YOLU İLƏ HUMANİTAR YÜKLƏRİN MANEƏSİZ BURAXILMASININ TƏRƏFDARIDIR

Bunu Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova həftəlik brifinqdə deyib. O qeyd edib ki, bu məsələ Rusiya Xarici İşlər Nazirliyininin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevin İrəvana səfəri zamanı ətraflı müzakirə olunub.
*"Bu günlərdə o, Bakıdadır. Onun azərbaycanlı tərəfdaşlarımızla müvafiq məsləhətləşmələri planlaşdırılıb. Biz Rusiya, Azərbaycan və Ermənistan liderlərinin kompleks üçtərəfli razılaşmaları əsasında fəaliyyət göstəririk"*, - deyə Zaxarova əlavə edib.

# "Türkiyə-Azərbaycan qardaşlığını, sarsılmazlığını inamla davam etdirəcəyik"

"Qardaş Azərbaycanın azadlığı və suverenliyi uğrunda canından keçən və "Türk şəhidliyi"ndə uyuyan şəhidlərimizin xatirəsi türk xalqlarının qəlbində əbədi yaşayacaq".
Bu sözləri Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı avqustun 30-da Türkiyənin Zəfər Bayramı münasibətilə "Türk şəhidliyi" abidəsi önündə keçirilən tədbirdə səsləndirib. Səfir bildirib ki, türk xalqı və Türkiyə Silahlı Qüvvələri Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfər qazanıb.
Cahit Bağçı 101 illiyi qeyd olunan bu böyük qələbənin türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsi olduğunu vurğulayıb.




# Slovakiya üçün Azərbaycanla yaxın əlaqələrinin olması çox önəmlidir



"Azərbaycana səfərimin məqsədi iki ölkə arasında əlaqələrin daha da inkişafına töhfə verməkdir. Slovakiya və Azərbaycan arasında dostluq münasibətlərindən əlavə iqtisadi əlaqələri də yüksəltmək niyyətindəyik".
Bunu Slovakiya Respublikası Milli Şurasının Sədri Boris Kollar jurnalistlərə açıqlamasında deyib.
O qeyd edib ki, Slovakiya tərəfindən Ağdam rayonunun Qərvənd kəndində "Ağıllı kənd" proyekti hazırlanıb və bununla bağlı görüşlər olacaq.
*"Azərbaycanla yaxın əlaqələrin olması bizim üçün çox önəmlidir. Ölkənizlə ticari, eyni zamanda, iqtisadi əlaqələri yeni mərhələyə daşımaq niyyətindəyik"*, - deyə Boris Kollar vurğulayıb.

# "Əslində biz gözləyirdik ki, ermənilər bunu müsbət qarşılayacaq"




"Biz Xankəndidə yaşayan erməni əhaliyə kömək etməyə hazır olduğumuzu, xoş niyyətimizi bildirdik".
Bu fikirləri Trend BİA-nın "Sahil Kərimli ilə Aktual" müəllif layihəsinə müsahibəsində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) prezidenti Novruz Aslan deyib.
*"Bir ora ərzaq yardımı ilə getmişdik. Əsində biz gözləyirdik ki, qarşı tərəf, Azərbaycan ərazisində yaşayan erməni əhali bunu müsbət qarşılayacaq. Çünki bizim bu humanist aksiyamız vaxtında atılan addımdır"*, - deyə N.Aslan əlavə edib.
O qeyd edib ki, AzQAC humanitar aksiyanı yerinə yetirmək əzmindədir.
*"Biz çalışacağıq ki, öz missiyamızı yerinə yetirək. Azərbaycan Qızıl Aypara Cəmiyyəti bu istiqamətdə müxtəlif məsləhətləşmələr aparır. Biz heç kimi güclə nəyəsə məcbur edə bilmərik. Qarşı tərəf də anlayışlı olmalıdır"*, - deyə o əlavə edib.
Qeyd edək ki, avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağda yaşayan ermənisilli şəxslərin ehtiyaclarını qarşılamaq üçün Bakıdan humanitar yardım yola salınıb. Ağdam-Xankəndi yolu ilə aparılan humanitar yardım karvanında ilkin mərhələ üzrə 40 ton un var.

# Beynəlxalq hüquq və ədalət Azərbaycanın tərəfindədir

Milli Məclisin sədri Sahibə Qafarova sentyabrın 5-də ölkəmizdə səfərdə olan Slovakiya Respublikası Milli Şurasının sədri Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.
Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu qeyd edən parlamentin spikeri, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın perspektivlərindən danışıb, Slovakiyanın "Həmrəylik Halqası" STRING layihəsindəki iştirakının gələcək əməkdaşlığımızda yeni səhifə açacağını deyib.
Laçın yolu ətrafında Ermənistanın apardığı yalan və uydurma təbliğata diqqət çəkən Milli Məclisin sədri vurğulayıb ki, Laçın yolu açıq olub və indi də



açıqdır. Sahibə Qafarova Azərbaycanın Xankəndi şəhərinə və ətraf kəndlərə humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif etdiyini, amma təəssüf ki, Ermənistanın bu yoldan istifadə etmək istəmədiyini qonağın diqqətinə çatdırıb.
Boris Kollar söhbət zamanı beynəlxalq hüququn və ədalətin Azərbaycanın tərəfində olduğunu vurğulayıb, Ağdam rayonunda Slovakiya tərəfindən həyata keçiriləcək "Ağıllı kənd" layihəsi barədə məlumat verib, ölkəsinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında iştirakından məmnunluğunu bildirib.

7-13 sentyabr 2023-cü il

# Azərbaycanın iqtisadi gücünün təntənəsinə çevrilən quruculuq



**Ziyad SƏMƏDZADƏ, akademik**

**(əvvəli ötən sayımızda)**

### 3 beynəlxalq hava limanı

Yollarla yanaşı, artıq azad edilmiş ərazilərdə iki beynəlxalq hava limanı inşa olunub. Bunlar "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin xətti ilə inşa olunmuş Füzuli və Zəngilan beynəlxalq hava limanlarıdır.

2021-ci il yanvarın 14-də təməli qoyulan Füzuli Beynəlxalq Hava Limanı cəmi 9 aya inşa edilib və 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə açılışı olub.

Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanında avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi də tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir.

2021-ci ilin may ayında təməli qoyulan Zəngilan Beynəlxalq Hava Limanının tikintisi 2022-ci ilin oktyabr ayında başa çatdırılıb. Bu, işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcək. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək. Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malik olacaq.

**Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.**

Azad edilmiş ərazilərdə növbəti hava limanı Laçında inşa olunur. Laçın Beynəlxalq Hava Limanı bütövlükdə işğaldan azad edilmiş ərazilərdə inşa edilən ən böyük infrastruktur obyektlərindən biridir. 2021-ci ilin avqust ayında təməli qoyulan hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq.Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının tam inkişafına da imkan verəcək.

### Ümumi gücü 53,6 meqavat olan 11 su elektrik stansiyası

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işlərinin bir istiqamətini də enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində elektrik enerjisi ilə etibarlı təminat məsələləri təşkil edir. Dövlət proqramına əsasən vəzifələrdən biri Qarabağ və Şərqi Zəngəzurun elektrik təchizatı şəbəkəsinin qurulması, Şuşa, Xocavənd, Ağdam, Füzuli, Zəngilan, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Tərtər və Xocalı rayonlarının yaşayış məntəqələrində elektrik təchizatı şəbəkəsinin tikintisi, yarımstansiyaların, "yaşıl enerji" konsepsiyası çərçivəsində rəqəmsal yarımstansiyaların və su elektrik stansiyalarının tikintisidir. İlk gündən bu məsələyə kompleks yanaşılıb, yəni azad edilmiş ərazilərdə həm enerjinin istehsalı, həm şəhər və kəndlərin enerji ilə təminatı üçün lazımi infrastrukturun yaradılması paralel şəkildə həyata keçirilib. Ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzurda yol-nəqliyyat sahəsində olduğu kimi, enerji ilə təminat məsələsi də ilk günlərdən diqqət mərkəzində saxlanılıb.

Qarabağ və Şərqi Zəngəzurun çaylarının üzərində vaxtilə 30-a yaxın su elektrik stansiyası mövcud olub. Ona görə bu ərazilərdə elektrik enerjisinin 90 faizindən çoxu su elektrik stansiyalarında istehsal edilib. Hətta burada istehsal edilən elektrik enerjisi tələbatdan artıq olduğundan işğal dövründə Ermənistana da ötürülüb. Təkcə 2019-cu ildə Qarabağdan Ermənistana 85 mln. kilovat/saat elektrik enerjisi göndərilib. 2020-ci ildə Qarabağdan Ermənistana təxminən 200 mln. kilovat/saat elektrik enerjisinin ötürülməsi planlaşdırılmışdı. 2021-ci ildə isə Ermənistana 330 mln. kilovat/saat elektrik enerjisi ötürülməsi nəzərdə tutulurdu. Lakin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ermənilərin bu niyyətini gözlərində qoydu.

Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib, avadanlıqlar çıxarılaraq Ermənistana daşınıb. Apara bilmədiklərini yandırıblar, stansiyaların binalarını isə dağıdıblar və ya partladıblar.

Hazırda enerji sahəsində prioritetlərdən biri Qarabağ və Şərqi Zəngəzurda elektrik stansiyalarının bərpası və ya yenilərinin inşasıdır. Bu ərazilərdə istifadəyə verilən ilk su elektrik stansiyası Laçın rayonundakı Güləbird SES-dir. Bu stansiya Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş, bu il fevralın 14-də istifadəyə verildi. Güləbird SES-in generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranıb və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə etməyə başlamışıq.



Daha sonra gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında isə təmir-bərpa işləri başa çatdırılaraq istifadəyə verilib. Bu stansiyalar Suqovuşan və Talış kəndlərinin enerji təchizatını ödəməklə birlikdə Tərtər 110 kilovotluq yarımstansiyasında "Azərenerji" sistemi ilə əlaqələndirilir.

Hazırda "Azərenerji" ASC tərəfindən Zəngilan və Laçın rayonlarında 7 yerdə ümumi gücü 70,5 meqavat olan su elektrik stansiyalarının tikintisi aparılır. Oxçuçayın üzərində yerləşən və Zəngilan rayonunun ərazisində yaradılan "Şayıflı", "Sarıqışlaq", "Zəngilan" və "Cahangirbəyli" su elektrik stansiyaları yeni tikilir və həmin stansiyaların hər birinin gücü 10,5 meqavat olmaqla, ümumilikdə 42 meqavat təşkil edəcək. Laçın rayonundakı 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" stansiyaları isə yenidən qurulur. Laçındakı "Mirik", "Qaraqışlaq", "Ağbulaq", "Zabux" və Kəlbəcərdəki "Zar" Su Elektrik stansiyaları isə yaxın vaxtlarda tamamilə yenidən qurulacaq. Eyni zamanda, Kəlbəcər rayonu ərazisindəki "Nadirxanlı", "Yuxarı Vəng", "Aşağı Vəng" və işğaldan azad edilən Murov dağın aşağı istiqamətində "Toğanalı" kiçik su elektrik stansiyaları yeni layihə əsasında tikiləcək. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək bu stansiyaların hər biri rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olmaqla yanaşı, stansiyalara Bakıdan və digər yerlərdən nəzarət etmək əlçatan olacaq.

İndiyədək "Azərenerji" tərəfindən azad edilmiş ərazilərdə 11 yerdə ümumi gücü 53,6 meqavat olan su elektrik stansiyaları yenidən qurulub. Ümumilikdə isə böyük Zəfərdən sonra işğaldan azad edilən ərazilərdə tikilən su elektrik stansiyalarının ümumi sayı tezliklə 25-ə çatdırılacaq və onlardan 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro yaşıl enerji istehsal etmək mümkün olacaq.

### 12 elektrik yarımstansiyası, 700 km yüksəkgərginlikli elektrik verilişi xətti

Azad olunmuş ərazilərimizin elektrik enerjisi ilə təminatının bir strateji istiqamətini də elektroenergetika strukturunun yaradılması, paylayıcı elektrik şəbəkələrinin inşası və onların respublikamızın enerji sisteminə inteqrasiyası təşkil edir. İşğal dövründə Qarabağ və ətraf rayonlar Ermənistan tərəfindən dağıdılmış və ya talan olunmuşdur. Sovetlər dönəmində bu ərazilərdə 10 elektrik şəbəkə rayonu (Şuşa, Xocalı, Xocavənd, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Füzuli, Kəlbəcər və Ağdam) üzrə ümumi gücü 858,6 MVA olan 20 yarımstansiya mövcud olmuşdu. Həmin ərazilərdə uzunluğu 81 km olan 330 kV-luq, 690 km olan 110 kV-luq və 615 km olan 35 kV-luq 3 yüksək gərginlikli elektrik veriliş xətti, eləcə də uzunluğu 6197 km olan 10 kV-luq və 8865 km olan 0,4 kV-luq elektrik veriliş xətləri və ümumi gücü 245.7 MVA olan 2435 ədəd transformator var idi. İndi bunların heç biri yoxdur, işğalçı Ermənistan tərəfindən hamısı dağıdılıb.

Prezident İlham Əliyevin tapşırıqlarına, dövlət proqramında qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq "Azərenerji" ASC tərəfindən işğaldan azad edilən ərazilərdə elektroenergetika strukturunun yaradılması, paylayıcı elektrik şəbəkələrinin inşası və onların respublikamızın enerji sisteminə inteqrasiya edilməsi istiqamətində enerji strategiyası həyata keçirilir. Bu strategiya hər bir rayonda 110 kVt-lıq yarımstansiyaların tikintisini və onların yüksəkgərginlikli xətlərlə ölkə sisteminə inteqrasiyasını, bu məqsədlə elektrik verilişi xətlərinin çəkilişini əhatə edir.

**Artıq indiyə kimi azad edilmiş ərazilərdə 12 yarımstansiya inşa edilib. Bunlar 110/35/10 kV-luq "Şuşa", "Füzuli", "Şükürbəyli", "Kəlbəcər", "Cəbrayıl", "Zəngilan", "Qubadlı", "Ağdam-1", "Ağdam-2", "Qorçu" , "Laçın" və 330/110 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyalarıdır.**

Bu yarımstansiyalardan birincisi olan "Şuşa" yarımstansiyası 2021-ci ilin may ayında istifadəyə verilib. Bundan təxminən bir ay sonra, 2021-ci il iyunun 14-də "Füzuli" yarımstansiyasının açılışı olub. 110/35/10 kilovoltluq bu yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilib. İnşa edilən yeni aeroportun və Şuşa yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla Füzuli şəhəri və ətraf kəndlərdə inşa ediləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edir.

İşğaldan azad edilən ərazilərin böyük hissəsinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyası da genişləndirilərək tam yenidən qurulub. Bu məqsədlə yarımstansiyanın gücü artırılmaqla yanaşı, 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək daha müasir formada yenidən tikilib. Burada yeni avadanlıqla komplektləşdirilmiş mühafizə və avtomatika sistemləri ilə təchiz edilən İdarəetmə Mərkəzi yaradılıb və lokal mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 12 yarımstansiyanın hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, tam rəqəmsallaşdırılıb. 12 yarımstansiyanın hər biri yerləşdikləri rayonu dayanıqlı elektrik enerjisi ilə təchiz edir. Beləliklə, işğaldan azad olunan bütün rayonlar elektrik enerjisi ilə təmin olunub.

Yarımstansiyaların arasında elektrik verilişi xətlərinin çəkilişi də başa çatdırılıb. Belə ki, 110 kV-luq "Şükürbəyli – Şuşa", "Şükürbəyli" yarımstansiyasına 110 kV-luq əlavə xəttin çəkilişi, 110 kV-luq "Daşkəsən – Kəlbəcər", 110 kV-luq "Şükürbəyli – Cəbrayıl", 110 kV-luq "Qubadlı – Zəngilan", 110 kV-luq "Xındırıstan – Ağdam-1 – Ağdam-2", 110 kV-luq "Cəbrayıl – Qubadlı", "Güləbird – Qubadlı", 110 kV-luq "Güləbird – Laçın şəhər" və 110 kV-luq "Kəlbəcər – Qorçu", elektrik verilişi xətləri çəkilib. Ümumilikdə 700 kilometrə yaxın yüksəkgərginlikli ötürmə xətti çəkilib.

2026-cı ilə qədər 1 ədəd 500 kV və 1 ədəd 330 kV-luq, 10 ədəd 110 kV-luq yarımstansiyaların, 110 km-lik 500 kV, 222 km uzunluğunda 330 kV-luq və 451 km-lik 110 kV-luq elektrik verilişi xətlərinin çəkilişi nəzərdə tutulur.

Ağdamda inşa olunan Qarabağ Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi isə Qarabağ regionunun elektrik təchizatının mərkəzi dispetçer sisteminə inteqrasiyasını təmin edir.

Bunlarla yanaşı, azad edilmiş ərazilərdə 35 KV-luq rəqəmsal yarımstansiyaların da tikintisi nəzərdə tutulur. Artıq Şuşa və Füzulidəki rəqəmsal yarımstansiyalar istismar edilir. Rəqəmsal şəbəkələrin təməl elementi olan Rəqəmsal Yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri ni azalır.

Rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar elektrik enerjisi verilişində fasilələrin yaranması barədə məlumatları onlayn qaydada əvvəlcədən ala bilirlər. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə əlaqələndirilməsini tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir.

**(davamı gələn sayımızda)**

# “Azərbaycanın parlaq müstəqilliyi Qərbi tam qane etmir”



“Bütün Avrasiya məkanı fonunda Azərbaycanın parlaq müstəqilliyi Qərbi tam qane etmir. Bununla belə, görünür ki, aparıcı Qərb ölkələri Bakı ilə münasibətlərə xələl gətirməməyə çalışır”.

Bu barədə AZƏRTAC-a xarici siyasət, müdafiə və təhlükəsizlik sahəsində rusiyalı ekspert Qriqori Trofimçuk bir sıra Qərb ölkələri xarici işlər nazirliklərinin ötən həftə səsləndirdiyi anti-Azərbaycan bəyanatlar dalğasını şərh edərkən deyib. “Bu gözlənilən idi. Çünki bu, Bakıya təsir etmək üçün yeganə praktiki vasitədir. Şübhəsiz ki, Qərb Bakının daha “üzüyola” olmasını istəyərdi. Bütün Avrasiya məkanı fonunda Azərbaycanın parlaq müstəqilliyi Qərbi tam qane etmir. Bununla belə, görünür ki, aparıcı Qərb ölkələri qeyd olunan kampaniyaya daha kiçik ifaçıları daxil edərək, Bakı ilə münasibətlərə xələl gətirməməyə çalışırlar. Bütövlükdə bunlar Bakının möhkəmliyini yoxlamaq üçün sınaqdır”, - deyə Agentliyin həmsöhbəti qeyd edib.

Onun sözlərinə görə, Qərbdə başa düşürlər ki, “Ukrayna hadisələrinin aydınlaşması Cənubi Qafqazda da çox şeyi dəyişəcəkdir”, buna görə də “Bakının yeni startını təxmin etməyə, qabaqcadan öyrənməyə çalışırlar”. “Hələ ki, onlar Türkiyə-Azərbaycan tandeminə qarşı heç nə edə bilmirlər: bu, müasir zamanın ən güclü hərbi-siyasi ittifaqlarından biridir. Bu müttəfiqlərin opponentlərində heç nə alınmır. Misal üçün, İran-Ermənistan, Hindistan-Ermənistan və hətta Fransa-Ermənistan kimi xaotik əməkdaşlıqlar Ankara-Bakı vəhdətinə yaxın da dura bilmirlər”, - deyə beynəlxalq ekspert vurğulayıb.

# SOCAR prezidenti “Brookfield” şirkətinin nümayəndəsi ilə əlverişli investisiya mühitini müzakirə ediblər



5 sentyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf “Brookfield” şirkətinin idarəedici partnyoru və Yaxın Şərq üzrə rəhbəri Jad Ellaun ilə görüşüb.

Görüşdə dünyanın ən böyük investisiya şirkətlərindən biri olan “Brookfield” şirkətinin müxtəlif ölkələrdə həyata keçirdiyi infrastruktur layihələri haqqında ətraflı məlumat verilib.

Görüş çərçivəsində SOCAR-ın uzunmüddətli korporativ strategiyasından bəhs edilib, bu xüsusda enerji təhlükəsizliyi, enerji keçidi, rəqəmsallaşma, biznes dayanıqlılığı, səmərəlilik və optimallaşdırma kimi təməl elementlərin prioritet istiqamətlər kimi müəyyənləşdirildiyi vurğulanıb.

Tərəflər Azərbaycanda xarici sərmayədarlar üçün yaradılan əlverişli investisiya mühitindən danışıb, bu istiqamətdə təmiz və rəqəmsal enerji texnologiyalarının tətbiqi, dekarbonizasiya, infrastruktur layihələri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi $15 mlrd.-a çatdırılacaq



“Azərbaycanla Türkiyə arasında Preferensial Ticarət Sazişinin əhatə dairəsinin genişlənməsi iki ölkə arasında ticarət dövriyyəsini 15 milyard ABŞ dollarına çatdıracaq”.

Bunu Türkiyə-Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun İdarə Heyətinin üzvü Selçuk Akat deyib.

Onun sözlərinə görə, Azərbaycan və Türkiyə arasında bu ilin aprel ayında Preferensial Ticarət Sazişinin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı protokol imzalanıb: “Protokola əsasən, mövcud siyahıya bəzi kənd təsərrüfatı və sənaye məhsulları əlavə edilib və onlara qarşılıqlı güzəştlərin tətbiqi nəzərdə tutulur. Bu isə, iki ölkə başçısının ticarət dövriyyəsinin həcminin 15 milyard ABŞ dollarınadək artırılması ilə bağlı qarşıya qoyduğu hədəflərə çatması üçün mühüm addımdır”.

Bununla yanaşı, S.Akat iki ölkə arasında ticarət əməliyyatlarının müntəzəm olaraq artmağa meyilli olduğunu qeyd edib: *“Belə ki, 2022-ci ildə bu göstərici əvvəlki ilə nisbətən 7.9% artaraq 3.3 milyard ABŞ dollarına çatıb. 2023-cü ilin ilk 6 ayında isə 40.5% artaraq 4 milyard 746 milyon ABŞ dolları təşkil edib”.*

O, həmçinin iki ölkə arasında həyata keçirilən tədbirlərlə bağlı məlumat verib: *“Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Türkiyə-Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondu (TADİV) Bakıda birgə tədbir keçirib. Tədbirdə iştirak edən 23 türk iş adamına Qarabağda və Şərqi Zəngəzurda, Naxçıvanda investisiya potensialının səmərəli reallaşdırılması üçün yaradılmış əlverişli investisiya mühiti, o cümlədən həyata keçirilən yenidənqurma və infrastruktur layihələri barədə məlumat verilib. Həmçinin investisiya əməkdaşlığı çərçivəsində reallaşa biləcək imkanlar barədə fikir mübadiləsi aparılıb”.*

# Ağdamın Baş Qərvənd kəndində Slovakiya tərəfindən “Ağıllı kənd” layihəsi həyata keçiriləcək



Ağdamın Baş Qərvənd kəndində Slovakiya tərəfindən “Ağıllı kənd” layihəsi həyata keçiriləcək.

Banker.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 5-də Slovakiya parlamentinin sədri Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə bildirilib.

Slovakiya nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərimizə səfər edəcəyi məmnunluqla qeyd olunub və bunun həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri ilə yaxından tanışlıq üçün yaxşı imkan yaradacağı bildirilib.

# “Moody’s” SOCAR-ın baza kredit balını yüksəldib




“Moody’s Investors Service” beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) baza kredit qiymətləndirilməsinin (BCA) “ba3”dən “ba2”yə yüksəldib.

Eyni zamanda, agentlik SOCAR-ın korporativ ailə reytinqini (CFR) “Ba1” səviyyəsində təsdiqləyib. Reytinqlər üzrə proqnoz “stabil”dir.

# “Türkiyəni qlobal enerji mərkəzinə çevirəcəyik”

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Soçi səfərindən qayıdandan sonra media nümayəndələrinə müsahibəsində bildirib.

Ərdoğan onu da əlavə edib ki, Rusiya qazının Türkiyə vasitəsilə Avropaya nəqli məsələsində və Türkiyəni enerji mərkəzinə çevirmək hədəfinə ölkəsi addım-addım yaxınlaşır.

# «ƏN TEZ» xidmətinin tətbiqi dairəsi genişləndirilir




3 saylı Bakı DOST mərkəzində və Heydər Əliyev Beynəlxalq Aeroportunda nazirliyin istifadəyə verilmiş növbəti innovativ – “ƏN TEZ” (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) xidməti vasitəsilə vətəndaşlara, o cümlədən səyahət etmək istəyənlərə yerindəcə müraciət etməklə məsafədən zəruri ədliyyə xidmətlərinin göstərilməsi imkanı yaradılıb.

Bu barədə Ədliyyə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Qeyd edilib ki, böyük vətəndaş məmnunluğu doğuran bu innovativ xidmətə artan ictimai maraq nəzərə alınaraq nazirlik tərəfindən “ƏN TEZ”-in tətbiqinin genişləndirilməsi davam etdirilir və artıq bu gündən həmin xidmət platforması Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin 1 saylı Bakı DOST mərkəzində istifadəyə verilib.

Bu innovasiya vasitəsilə vətəndaşlar heç bir qeydiyyat və elektron imza tələb olunmadan, tək şəxsiyyət vəsiqəsi ilə biometrik eyniləşdirmə aparılmaqla Ədliyyə Nazirliyinə müraciət edərək notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, tələbkar qismində bəzi məhkəmə qərarlarının icrası və digər xidmətlərdən yararlana bilərlər.

Nazirlik tərəfindən “ƏN TEZ” xidmətinin paytaxtla yanaşı, respublikamızın digər bölgələrində, o cümlədən işğaldan azad edilmiş ərazilərdə, habelə ASAN xidmət mərkəzlərində və insanların daha çox müraciət etdikləri digər xidmət məkanlarında da istifadəyə verilməsi nəzərdə tutulur.

# İnvestisiyaların və ixrac kreditlərinin İslami prinsiplər əsasında sığortalanması müzakirə edilib

*“Bu gün Mərkəzi Bankda İnvestisiyaların və İxrac Kreditlərinin Sığortalanması üzrə İslam Korporasiyasının baş icraçı direktoru Oussama Abdel Rahman Kaissinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdük”.*

Bunu Mərkəzi Bankın sədri Taleh Kazımov “X” sosial şəbəkəsində bildirib.

Qeyd edib ki, görüşdə investisiyaların və ixrac kreditlərinin İslami prinsiplər əsasında sığortalanması məsələlərinə, xüsusən də bu maliyyə münasibətlərinin ölkəmizdə real sektorun və maliyyə sisteminin inkişafına töhfəsinə dair fikir mübadiləsi aparılıb.





Eyni zamanda, təşkilatlar arasında gələcək inkişaf imkanları ilə bağlı məsələlər müzakirə edilib.

## "Yeni Qubadlı–Laçın avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün 20 mln. manat ayrılıb



Prezident İlham Əliyev "Yeni Qubadlı-Laçın avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

Sərəncama əsasən, Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 33-cü kilometrliyindən başlayan Yeni Qubadlı–Laçın avtomobil yolunun layihələndirilməsi və tikintisinin həyata keçirilməsi məqsədilə 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 20 milyon manat ayrılıb.

## TAP vasitəsilə ötürülən Azərbaycan qazının həcmi açıqlanıb



Bu ilin əvvəlindən Azərbaycan təbii qazını Avropaya nəql edən Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə 7,59 milyard kubmetr həcmində "mavi yanacaq" ötürülüb.

Bu barədə TAP AG konsorsiumundan bildirilib.

Həmçinin TAP vasitəsilə 2020-ci ilin dekabrın 31-dən indiyədək ümumilikdə 27,09 milyard kubmetr qaz nəql edilib. Bunun 1,37 milyard kubmetri Bolqarıstana, 2,85 milyard kubmetri Yunanıstana, 22,65 milyard kubmetri isə İtaliyaya göndərilib.

Xatırladaq ki, Azərbaycan qazının Avropaya tədarükü Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans-Adriatik Boru Kəməri vasitəsilə 2020-ci ilin sonunda başlayıb. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir və 2027-ci ilin sonunadək 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub. TAP-ın ümumi uzunluğu 878 km-dir ki, bunun da 550 km-i Yunanıstanın şimal hissəsindən, 215 km-i Albaniya ərazisindən, 105 km-i Adriatik dənizinin dibi ilə, 8 km-i isə İtaliya ərazisindən keçir.

Bolqarıstana "Şahdəniz" qaz-kondensat yatağının istismarının II mərhələsi çərçivəsində hasil edilən "mavi yanacaq" Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) vasitəsilə nəql edilir. "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" yatağından 1 milyard kubmetr qazın tədarükü üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb.

Ümumi uzunluğu 182 kilometr olan boru kəmərinin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Boru kəmərin illik ötürücülük qabiliyyətinin 3-5 milyard kubmetr olacağı gözlənilir.

## "Macarıstan Azərbaycandan 1 milyard kubmetr təbii qaz almağı planlaşdırır"

"Macarıstan tədarük mənbələrini şaxələndirmək üçün Azərbaycandan 1 milyard kubmetr təbii qaz almağı planlaşdırır".

Bunu Macarıstanın XİN rəhbəri Peter Siyarto Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşündən sonra keçirilən mətbuat konfransında deyib.



O, Avropa İttifaqını Azərbaycan təbii qazının Rumıniya və Macarıstana çatdırıla biləcəyi boru kəmərlərinin ötürücülük qabiliyyətini genişləndirmək üçün vəsait ayırmağa çağırıb.

Həmçinin, nazirin sözlərinə görə, Bakı və Budapeşt arasında Macarıstanın tikinti şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa işlərində iştirakı ilə bağlı ilkin razılıq əldə olunub.

Xatırladaq ki, avqustda Budapeşt və Bakı arasında siyasi saziş imzalanıb və bu sazişə əsasən, Azərbaycan qazının Macarıstana nəqlinin həcmi təqribən 1 milyard kubmetrə çatdırılacaq.

## İsveçrə şirkətləri Qarabağın bərpasında Azərbaycana dəstək verməyə hazırdır

"Artıq bir neçə İsveçrə şirkəti Qarabağın bərpasında iştirak etmək arzusunu bildirib".

Bunu İsveçrənin Azərbaycandakı müvəqqəti işlər vəkili Aleksandr Hoffet İsveçrənin Milli Gününə həsr olunan tədbirdə deyib.

"İsveçrənin şirkətləri artıq Azərbaycanda uğurla fəaliyyət göstərir. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) bizim bazarda çoxdandır ki mövcuddur. İsveçrə şirkətləri Qarabağın yenidən qurulmasında istifadə etmək üçün öz qabaqcıl texnologiyalarını Azərbaycana verməyə hazırdırlar", - deyə o qeyd edib.

A.Hoffet Azərbaycan ilə İsveçrə arasında ticarət dövriyyəsində nəzərəçarpacaq artım olduğunu vurğulayıb:

***"Pandemiyadan sonra birgə iqtisadi komissiyamız nəhayət ki, görüşə bildi. Lakin qeyd etmək lazımdır ki, real potensial hələ də əldə olunmayıb".***



## Dünya Bankı ilə İKT və nəqliyyat sektorlarında əməkdaşlıq müzakirə edilib



Azərbaycan Dünya Bankı ilə ölkədə İKT və nəqliyyat sektorlarının inkişafı, bu sahələrdə Dünya Bankının Azərbaycan hökuməti ilə əməkdaşlığının perspektivlərinə dair fikir mübadiləsi aparıb. Bu barədə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev özünün "X" (tvitter) sosial şəbəkə hesabında bildirib. O qeyd edib ki, bu barədə müzakirələr Dünya Bankının Azərbaycan üzrə yeni təyin olunmuş ölkə meneceri Ştefani Ştalmeysterlə görüşdə aparılıb.

## Azərbaycanla İslam İnkişaf Bankı arasında uğurlu və səmərəli əməkdaşlıq davam edir

Energetika naziri Pərviz Şahbazov ölkəmizdə səfərdə olan İslam İnkişaf Bankı qrupuna daxil olan İnvestisiya və İxrac Kreditlərinin Sığortası üzrə İslam Korporasiyasının rəhbəri Oussama Kaissinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüşdə Azərbaycanla İslam İnkişaf Bankı arasında uğurlu və səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanıb, bankın ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində həyata keçirdiyi layihələrə verdiyi dəstək yüksək qiymətləndirilib. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən irəli gələn strateji hədəflər, işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan layihələr və "Yaşıl enerji" zonasının yaradılması, enerji səmərəliliyi, bərpa olunan enerji sahəsinin inkişafı istiqamətində görülən tədbirlər haqqında məlumat verilib, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## İƏT Azərbaycanın azad edilmiş əraziləri ilə bağlı hesabat hazırlayacaq



Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyəti sədrinin müavini Samir Poladov ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının (İƏT MDİHK) nümayəndə heyəti ilə görüş keçirib.

ANAMA-dan bildiriblər ki, Samir Poladov ölkəmizin işğaldan azad edilmiş ərazilərində mövcud mina və partlamamış hərbi sursat problemi, həmin problemin insan həyatına qarşı törətdiyi ciddi təhdid, ərazilərin bərpa və yenidənqurulması işlərinə yaratdığı maneələr, eləcə də mina təhlükəsi ilə mübarizə istiqamətində icra edilən fəaliyyət barədə qarşı tərəfə məlumat verib.

Nümayəndə heyəti, Gəncə şəhərinə səfərləri zamanı Vətən müharibəsi dövründə düşmənin raket hücumlarına məruz qalmış yaşayış ərazisinə baş çəkdiklərini, gördüklərindən dəhşətə gəldiklərini ifadə ediblər.

Həmçinin işğaldan azad olunmuş Azərbaycan ərazilərində əldə etdikləri faktlara dair müvafiq hesabat hazırlayaraq, beynəlxalq ictimaiyyətə təqdim edilməsi niyyətində olduqlarını vurğulayıblar.

## Şuşada tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması qaydası müəyyənləşib

Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin razılığı ilə tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması qaydası müəyyənləşib.

Bununla bağlı Nazirlər Kabinetinin "Müfəssəl plan olmadığı və ya onun müddəti bitdiyi hallarda tikintiyə icazə verilməsi və ya məlumatlandırma icraatı məqsədləri üçün tikinti layihələrinin onların həyata keçiriləcəkləri ərazinin planlaşdırılması sənədlərinə (baş planlara və (və ya) ümumi planlara), habelə müfəssəl planın hazırlanması zamanı nəzərə alınan tələblərə uyğunluğunun müəyyənləşdirilməsi Qaydaları"nda dəyişikliklər edilib.

Dəyişikliyə əsasən, tikintiyə icazənin qüvvədə olma müddəti sifarişçinin müraciəti əsasında Fövqəladə Hallar Nazirliyinin tikinti işlərinin dayandırılması ilə bağlı qərarı olduğu halda, həmin qərarın Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Şuşa şəhərinin ərazisində yerləşən abidələrə təhlükə yaradan işlərin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı yazılı göstərişi olduğu halda, həmin göstərişin qüvvədə olduğu müddətə qeyd-şərtsiz olaraq uzadılır.



## Azərbaycanda yeni qoruq yaradıldı

"Xınalıq" və 200 kilometrdən artıq yol "Xınalıq və Köç yolu" Qoruğu elan edildi.

Prezident İlham Əliyev sentyabrın 4-də "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğunun yaradılması haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Qoruğun fəaliyyətinin təmin edilməsi ilə bağlı tələb olunan zəruri xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçiriləcək.

Sərəncamda deyilir:

"Quba rayonunun Xınalıq kəndindən Pirsaat su anbarınadək uzanan və Qusar, Quba, Şamaxı, Qobustan, Abşeron və Hacıqabul rayonları ərazisindən keçən 200 kilometrdən artıq köç yolu yüz illər boyu Şirvan və Quba bölgəsinin köçəri heyvandarlıq təsərrüfatlarının istifadə etdiyi əhəmiyyətli yol olmuşdur. Köçəri heyvandarlıq təsərrüfatları tərəfindən indi də istifadə edilən həmin köç yolu üzərində yüksək tarixi-mədəni dəyərə malik çox sayda abidəyə rast gəlinir. Bu yolun Azərbaycanın mədəni sərvətlərinin qiymətli nümunələri sırasında özünəməxsus yeri vardır. Azərbaycan Respublikasının "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun ərazisi və Qusar, Quba, Şamaxı, Qobustan, Abşeron və Hacıqabul rayonlarından keçən tarixi köç yolunun ərazisi "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğu elan edilsin".



# Как сегодня Азербайджан восстанавливает территории Карабаха
## Эксклюзивный репортаж




Как сегодня Азербайджан восстанавливает территории Карабаха. Эксклюзивный репортаж

Карабах. Время жить и строить Скоростные трассы, аэропорты, умные поселки, зеленая энергетика — Азербайджанская Республика на территории многострадального Карабаха не просто активно реализует программу «Большое возвращение», а стремится сделать из региона самую передовую часть страны. По приглашению азербайджанской стороны журналисты «СБ. Беларусь сегодня" посетили эти районы, чтобы увидеть, как осуществляется один из самых масштабных на сегодняшний день послевоенных проектов. Любая война рано или поздно заканчивается. После наступает время возрождения. В случае с Карабахом речь идет даже не о восстановлении, а скорее о возведении нового на месте безвозвратно утерянного. Земля, искореженная военными действиями, требует особого внимания и заботы.

### Взрывной риск

Въезд на эти земли разрешен только по специальным пропускам. Через каждые несколько десятков километров — обязательный пост проверки документов. При этом очередей нет — работа по пропуску транспорта идет слаженно. Пока наши документы проверяют в первом пункте, мимо один за другим проезжают грузовики со стройматериалами. Возведение новых сооружений здесь идет 24/7. Отстроить территорию размером с Черногорию Азербайджан планирует в максимально короткие сроки. Но, возможно, процесс мог бы идти еще быстрее, если бы не минный риск. Неразорвавшиеся боеприпасы и минные поля — отголоски войны, которые сегодня представляют главную сложность во время работ на этих территориях. При въезде в регион проходим небольшой инструктаж: не сходить с дорог, не трогать подозрительные предметы и не отклоняться от маршрута. Пока в среднем по районам разминировано лишь 15 процентов земель. Об этом нам рассказал Халик Зульфугаров, начальник по Агдамскому району Национального Азербайджанского агентства по очистке территорий от мин. АНАМа, как его называют здесь сокращенно, главное ведомство по безопасности в этих краях. В распоряжении у азербайджанских саперов сегодня самое современное оборудование: начиная от дронов и заканчивая машинами для разминирования последних моделей. Процесс очистки идет ускоренными темпами. Тормозит лишь отсутствие точных координат расположения мин. По сведениям представителей АНАМы, на территории Карабаха их




установлено около 1 миллиона, выявлено — 80 тысяч. Сотрудники АНАМы гордятся тем, какую важную миссию они выполняют. В этом процессе задействованы не только саперы. На полигоне, где мы смогли наблюдать ликвидацию найденных мин, удалось пообщаться с военным врачом, который служит в АНАМе с 2014 года. Без скорой помощи не совершается ни один выезд на разминирование. Молодой человек признается, что служит с чувством особой ответственности:

— Эта работа очень опасная, было много угрожающих жизни ситуаций. Но нам не страшно, мы привыкли. Мы должны жить в мире, чтобы все было нормально, в том числе у наших детей. И для этого каждый должен вносить вклад в освоение этих территорий, — говорит Васиф.

### Агдам. Минные поля вместо виноградников

В Советском Союзе этот регион был известен виноградом и плодородной почвой. Местные жители уверяют: в земле можно было оставить любую семечку и не переживать — урожай точно будет. И хоть распаханных полей здесь пока не видно, жизнь все равно пробивается вопреки всему. Внутри разрушенных зданий за годы войны успели вырасти деревья. На них — яркие зреющие гранаты. Сегодня речь о земледелии в этом регионе пока не ведется. Но восстановлению Агдамского региона уделяется особое внимание. Араз Иманов, старший советник спецпредставителя Президента Азербайджана в Карабахе, рассказывает, что согласно программе «Большое возвращение» через Агдамский район будут проходить все основные наземные пути в регионы Карабаха:

— На данный момент в городе возводятся инфраструктурные проекты. Строятся дороги, несколько жилых комплексов, каналы орошения, проводятся электрические кабели. Уже готова школа для 1000 учеников, гостиница с конференц-залом. Большая территория района уже очищена и передана для строительства дорог и коммуникаций. И как только полностью разминируем всю землю, будет проложена прямая дорога из Агдама в Физули.

Двигаемся по территории полностью уничтоженного населенного пункта, фиксируя развалины. Сложно представить, что когда-то это был цветущий шумный город с историческими достопримечательностями. Но в Азербайджане уверены: программа восстановления поможет сделать Агдам еще больше и красивее, чем он был до войны. И реализацию этих планов очень ждут. Специалисты АНАМы уже обезвредили на территории Карабаха около 80 тысяч мин.

— Мы провели опрос среди вынужденных переселенцев и беженцев, число которых близко к миллиону, чтобы выявить процент желающих вернуться в свои родные края. В результате выяснилось, что 67 процентов опрошенных готовы вернуться без каких-либо условий и ожиданий от правительства Азербайджана. Им просто нужно, чтобы им разрешили въехать на эту территорию для того, чтобы они продолжили свою жизнь здесь. Цифра увеличивается до 98 процентов, когда мы добавляем привилегии и условия, созданные правительством. Например, возможности для сельскохозяйственной деятельности или же обеспечение жильем, льготы по налогам, таможенным пошлинам, — говорит Араз Иманов.

### Физули. Новое дыхание

В разрушенный Физули въезжаем по центральной улице и видим необычную картину: с правой стороны дороги уже почти готовый новый микрорайон (в пятиэтажных домах около 1000 квартир), с левой — обломки зданий, разрушенных в ходе военных действий. Араз Иманов рассказывает, что на месте, где остались части исторических зданий, будет разбит современный парк. Руины (клуба, мечети, завода по производству национальных инструментов и так далее) планируют сохранить как напоминание о произошедшем. Такую идею высказали местные жители во время приезда в город Президента Азербайджанской Республики Ильхама Алиева. Глава государства поддержал инициативу, она нашла отражение в градостроительном плане.

Араз Иманов с воодушевлением сообщает, что город Физули готовится вот-вот принять очередных переселенцев. А новая школа, рассчитанная на 1000 учеников, построенная для города Узбекистаном, 1 сентября распахнет двери для маленьких физулинцев. В словах официального представителя администрации чувствуется неподдельная радость от происходящих процессов.

Эти края для него родные. Мы стоим на возвышенности перед разрушенным городом, и он показывает, в какой именно стороне были дома его дедушек и бабушек и каким он запомнил этот город в детстве.

**Быть причастным к восстановлению территорий после войны для него не просто работа, а что-то гораздо большее.**

### Жизненно важные артерии

Одна из основных частей программы «Большое возвращение», ведущей к возрождению Карабаха, — создание дорожной инфраструктуры. И в этом вопросе Азербайджан развернулся на полную катушку. Скоростные трассы возводятся с космической скоростью. Пока передвигаться по Карабаху возможно в основном по бездорожью (с редким выездом на части готовых хайвеев), однако по количеству строительной техники, задействованной в обустройстве дорожной инфраструктуры, очевидно, что до открытия трасс остались считанные месяцы. О чем говорить, если аэропорт недалеко от Физули возвели за семь месяцев? Всего на территории азербайджанского Карабаха будет три аэропорта. Второй уже работает в Зангелане. Его, как и аэропорт в Физули, открывали лично Президент Азербайджанской Республики Ильхам Алиев и Президент Турецкой Республики Реджеп Эрдоган. Третья воздушная гавань будет построена в Лачине. Старший советник спецпредставителя Президента Азербайджана говорит, что в восстановлении этих земель помогают многие страны:

— Мы сотрудничаем с государствами как напрямую (с их правительствами), так и с различными компаниями. Активно налажено взаимодействие с Турцией, Казахстаном, Узбекистаном и другими странами. С Российской Федерацией мы также подписали договор о регулярных полетах в Физулинский аэропорт. Но пока из-за минного риска полеты не производятся. Также российские миротворцы помогают в разминировании тех территорий, которые им подконтрольны. Несмотря на то что они там находятся временно, то, что они делают, имеет большое значение для будущего этого региона.

**(Продолжение следует).**

**Источник:**
**СБ Беларусь сегодня**
**isaenok@sb.by**

# ЕБРР готов пересмотреть стратегию по Азербайджану




Европейский банк реконструкции и развития (ЕБРР) готов пересмотреть стратегию по стране для Азербайджана.

Об этом сообщила глава ЕБРР в Азербайджане Наталья Моуравидзе.

"Азербайджан работает над созданием большего количества возможностей для инвесторов, которые хотят воспользоваться его богатыми природными ресурсами, стратегическим расположением и растущим частным сектором. Как указано в программе страны на 2030 год, сегодняшний Азербайджан уделяет приоритетное внимание рыночным реформам, благоприятному для бизнеса управлению и либерализации торговли", - сказала она.

По словам Моуравидзе, в следующей страновой стратегии ЕБРР будут учтены все эти принципы. Период проверки быстро приближается, и банк уже готовится к взаимодействию с органами власти, клиентами и партнерами.

Отметим, что кредитный портфель проектов ЕБРР в Азербайджане по состоянию на 31 июля 2023 года составил 787 миллионов евро. ЕБРР является крупнейшим инвестором в Азербайджане, где он работает с 1992 года. Ожидается, что в течение следующих трех лет портфель инвестиционных проектов составит 750 миллионов долларов США. Банк планирует потратить 300 миллионов долларов в ряде отраслей в 2023 году, включая энергетику, транспорт, частный сектор, малые и средние предприятия, а также банковскую отрасль.

# IFC готова помочь Азербайджану выйти на новый уровень развития возобновляемой энергетики

Международная финансовая корпорация (IFC) имеет все возможности для работы с Азербайджаном в области возобновляемых источников энергии и помочь стране выйти на новый уровень развития в этой сфере путем привлечения частных инвестиций, сказала в эксклюзивном интервью Trend региональный менеджер IFC по Южному Кавказу Ивана Фернандес Дуарте.

Она отметила, что IFC и Международный банк реконструкции и развития (МБРР) работают с правительством Азербайджана над тем, как реализовать дорожную карту развития морской ветроэнергетики и привлечь девелоперов и частных инвесторов.

«Хотя значительный рост добычи нефти и газа сыграл ключевую роль в укреплении экономики Азербайджана, диверсификация энергетики является ключом к обеспечению будущей устойчивости страны в постпандемический период. Двигаясь вперед, Азербайджан готов оптимизировать свой ненефтяной сектор посредством инновационных инициатив частного сектора в соответствии со своей концепцией национального развития до 2030 года. Диверсификация от нефти и газа поможет ускорить работу по декарбонизации, повысив конкурентоспособность. Азербайджан обладает достаточными ресурсами возобновляемой энергии, в частности, имеется значительный потенциал в области морской ветроэнергетики. По оценкам, проведенным в рамках Программы помощи управлению энергетическим сектором Всемирного банка, технический потенциал морской ветроэнергетики страны составляет 157 гигаватт, по сравнению с текущей общей установленной мощностью - около 8 гигаватт», - сказала Дуарте.

Она отметила, что дорожная карта развития морской ветроэнергетики, опубликованная министерством энергетики Азербайджана, МБРР и IFC, показывает, что страна имеет потенциал для установки 7 гигаватт морской ветровой энергии к 2040 году.

«В конечном итоге, Азербайджан может экспортировать возобновляемую энергию своим соседям и в Европу, превращаясь в региональный энергетический центр», - добавила региональный менеджер IFC на Южном Кавказе.

# Ərdoğan Putinin “Taxıl sazişi” ilə bağlı şərtlərini açıqlayıb

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qara Dəniz Taxıl təşəbbüsünün (“Taxıl sazişi”nin) yenilənməsi üçün Rusiya Prezidenti Vladimir Putinin 2 şərtini açıqlayıb.

Bu barədə Türkiyə lideri Soçi səfərindən sonra təyyarədə jurnalistlərin suallarını cavablandırarkən açıqlama verib.

Şərtlərdən biri Rusiya Kənd Təsərrüfatı Bankının (Rosselxozbank) Türkiyənin “Ziraat Bankı”nın SWIFT sisteminə qoşulmasından ibarətdir.

Türkiyə Prezidentinin sözlərinə görə, Putinin ikinci şərti taxıl nəqlində iştirak edən gəmilərin sığortalanması məsələsinin həllidir.



Ərdoğan onu da əlavə edib ki, Rusiya Prezidenti Putin ilkin mərhələ üçün 6 ölkəyə 1 milyon ton taxıl göndərməyə razılaşıb.

# Aİ 10 yeni ölkəni qəbul etməyə hazır olmalıdır

Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrell bildirib ki, Aİ 10 yeni ölkənin qəbulu üçün hazırlıqlara başlamalıdır. Avropa diplomatiyasının rəhbəri qeyd edib ki, Aİ-nin genişlənməsi ideyası müzakirə mövzusudur və ölkələrin assosiasiyaya qoşulması prosesi Rusiyanın Ukraynadakı hərbi əməliyyatını sürətləndirib. O, bunu İspaniyanın Toledo şəhərində Aİ xarici işlər nazirlərinin qeyri-rəsmi görüşündən sonra bildirib.

Cənab Borrelin fikrincə, Ukrayna və Qərbi Balkanların ittifaqa qoşulması üçün siyasi məqsədləri müəyyən etməklə, Aİ-nin genişlənməsi prosesinə “sütun” vermək lazımdır. **“Bu şərtlər daxilində müəyyən üfüqün müəyyən edilməsi, qəbul üçün vaxt çərçivəsi Aİ ölkələrinin və namizəd ölkələrin səylərini cəmləşdirməyə imkan verəcək”**, – Borrel deyib. Banker.az bu barədə Kommersant-a istinadən xəbər verir.

Avqustun 28-də Avropa Şurasının sədri Çarlz Mişel Aİ-ni assosiasiyanın genişləndirilməsinə hazırlaşmağa çağırıb. Onun sözlərinə görə, Aİ 2030-cu ilə qədər yeni üzv dövlətləri birliyə qəbul etməyə hazır olmalıdır.



Hazırda 7 ölkə Aİ üzvlüyünə rəsmi namizəddir. Onların arasında Albaniya, Moldova, Şimali Makedoniya, Serbiya, Türkiyə, Ukrayna və Monteneqro var. Ukrayna 2022-ci ilin fevral ayının sonunda Aİ-yə üzvlük üçün müraciət edib və iyun ayında müraciət təsdiqlənib.

# “Rusiyada Ermənistandan daha çox erməni yaşayır”



“Unutmayaq ki, Rusiyada Ermənistandan daha çox erməni yaşayır”.

Bunu Kremlin sözçüsü Dmitri Peskov deyib.

“Rusiya Cənubi Qafqaz regionunda vəziyyətin sabitləşdirilməsində çox mühüm rol oynamaqda davam edir. Rusiya Cənubi Qafqaz regionunun ayrılmaz hissəsidir. Buna görə də heç yerə gedə bilməz. Rusiya Ermənistanı da tərk edə bilməz. Unutmayaq ki, Rusiyada Ermənistandan daha çox erməni yaşayır”, – o vurğulayıb.

# Almaniya iqtisadiyyatı geriləyib

Almaniyada ixracat iyul ayında əvvəlki aya görə 0.9 faiz azalaraq 130.4 milyard avro geriləyib.

Bu barədə Almaniya Federal Statistika İdarəsi məlumat yayıb.

Qurumdan həmçinin bildiriblər ki, iyulda idxal 1.4 faiz artaraq 114.5 milyard avroya çatıb.



Beləliklə, Almaniyanın mövsüm və təqvim təsirlərindən təmizlənmiş xarici ticarət profisiti 15.9 milyard avro olub. 2022-ci ilin iyul ayında sözügedən profisit 4.2 milyard avro olaraq qeydə alınıb. Almaniyada iyul ayının 71.9 milyard avrosu Avropa İttifaqı (Aİ) ölkələrinə ixrac edilib. Ölkənin idxalının 61.7 milyard avrosu Aİ-dən gəlib. İyun ayı ilə müqayisədə Avropa İttifaqı ölkələrinə ixrac 0.5 faiz, bu ölkələrdən idxal isə 2.9 faiz artıb.

Almaniya Federal Statistika İdarəsinin məlumatına görə, ölkənin ən mühüm ticarət tərəfdaşı olan Çinə ixracı iyun ayı ilə müqayisədə 1.2 faiz artaraq 8.3 milyard avro təşkil edib. Sözügedən dövrdə Almaniyanın digər mühüm ticarət tərəfdaşı olan ABŞ ixracatını 5.2 faiz artıraraq 13.5 milyard avroya çatdırıb.

Almaniyanın Rusiyaya ixracı iyulda 2.2 faiz artaraq 700 milyon avroya çatıb.

Rusiyadan idxal isə 15.7 faiz azalaraq 200 milyon avroya düşüb.

Analitiklərin fikrincə, zəifləyən ixracı nəzərə alsaq, Avropanın ən böyük iqtisadiyyatına sahib Almaniyanın ilin ikinci yarısında yenidən resessiyaya girmək riski artır.

# Rusiya Ermənistandan izahat istəyib

Rusiya Xarici İşlər Nazirliyi Ermənistan hökumətindən Roma statutunu parlamentə ratifikasiya üçün göndərməsinə görə izahat istəyib.

Bu barədə qurumun sözçüsü Mariya Zaxarova brifinqdə deyib.

Onun sözlərinə görə, gələcək addımlar bu izahatın məzmunundan asılıdır.

Xatırladaq ki, daha əvvəl Ermənistan hökuməti Roma statutunu ratifikasiya üçün parlamentə göndərib.

Qeyd edək ki, Beynəlxalq Ədalət Məhkəməsi (Haaqa tribunalı) Rusiya Prezidenti Vladimir Putini Ukrayna ərazisində müharibə cinayətlərində ittiham edərək barəsində qərar çıxarıb. Ermənistan parlamenti sənədi ratifikasiya edəcəyi təqdirdə, İrəvan Beynəlxalq Ədalət Məhkəməsinin qərarını icra etmək öhdəliyi götürür. Bu isə o deməkdir ki, Putin Ermənistana səfər edərsə, həbs olunaraq aidiyyəti üzrə təhvil verilməlidir.

# Kreml Paşinyana cavab verib: Rusiya Cənubi Qafqazı tərk etməyə hazırlaşmır

“Rusiya Cənubi Qafqaz regionunu tərk etməyə hazırlaşmır”.

Bunu Kremlin sözçüsü Dmitri Peskov Ermənistan Baş naziri Nikol Paşinyanın Rusiya əleyhinə bəyanatına münasibət bildirərkən deyib.

**“Moskva Paşinyanın bəyanatları ilə razılaşmır, Rusiya regionu tərk etməyə hazırlaşmır və tərk edə də bilməz. Rusiya Qarabağda təhlükəsizliyin zəmanətçisi rolunu oynamağa davam edəcək”**, – deyə Peskov vurğulayıb.

Qeyd edək ki, Paşinyan İtaliya mətbuatına müsahibəsində Rusiyanın Cənubi Qafqaz regionundan gedəcəyini bildirib.

**“Bir gün biz yuxudan oyanacağıq və görəcəyik Rusiya burada yoxdur. Rusiya Cənubi Qafqazdan gedir”**, - deyə Ermənistan Baş naziri vurğulayıb.



# Avropada təbii qaz ucuzlaşıb

Sentyabrın 4-də keçirilən hərracların bağlanışında Avropada qazın 1 000 kubmetrinin qiyməti 380 ABŞ dollarından aşağı enib.

1 sentyabr tarixində oktyabr fyuçerslərinin qiyməti TTF (Niderlandın “Title Transfer Facility”i – Avropanın ən likvid virtual satış mərkəzi) indeksi üzrə 377.9 dollar təşkil edib, bu da öncəki hesablama qiyməti (399.6 dollar) ilə müqayisədə 5.4% azdır.

Xatırladaq ki, ötən ilin 7 mart tarixində gün ərzində Avropada qazın qiyməti bir neçə dəfə rekord vuraraq maksimum 3 900 dollaradək yüksəlib.




Qeyd edək ki, 2021-ci ilin dekabrın 31-dən Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə Avropaya Azərbaycan qazının nəqlinə başlanılıb.

# “Bloomberg”: İran neftinin ixracı ilin sonuna qədər azalacaq



“İranın son aylarda əhəmiyyətli dərəcədə artan neft ixracı ilin sonuna qədər azala bilər”.

Bu barədə “Bloomberg” yazıb.

Məlumata görə, bu, Çindən tələbin azalması ilə bağlıdır. Bundan əvvəl xəbər verilmişdi ki, ilin əvvəlində Vaşinqton və Tehran arasında aparılan danışıqlardan sonra Amerika hakimiyyəti İrandan neft ixracı ilə bağlı mövqelərini yumşaldıb. Bununla belə rəsmi olaraq kifayət qədər sərt sanksiyalar ölkəyə şamil olunmaqda davam edir.

İlk növbədə, İran ixracı Çinə tədarüklər hesabına artıb. “TankerTrackers.com Inc.”in məlumatına görə, İrandan Çinə neft tədarükü ötən il gündəlik 1 milyon bareldən bu il 1.4-1.9 milyon barelə yüksələrək, iki dəfə artıb. Ümumilikdə, İrandan neft ixracı sutkada 2 milyon barelə çatıb ki, bu da ölkənin maksimum gücünə yaxındır.

Mənbələr bildirirlər ki, İran ixracı 2023-cü ildə zirvəyə çatıb və Çində tələbatın mövsümi azalması səbəbindən azalmağa davam edəcək.

# Avropaya getmək istəyən ermənilərin sayı 50 faiz artıb

Ermənistanda Avropaya getmək istəyənlərin sayı 40-50 faiz artıb. Trend Ermənistan KİV-ə istinadən xəbər verir ki, COVID-19 pandemiyasından əvvəlki illərlə müqayisədə, Ermənistanda Şengen vizası üçün müraciət edənlərin sayında 40-50 faizlik artım qeydə alınıb.

Vurğulanıb ki, Ermənistanın Xarici İşlər Nazirliyi vizaların verilməsində yaranan problemi aylardır ki, həll edə bilmir.

Həmçinin, o da deyilir ki, Avropa İttifaqı (Aİ) ölkələrinin səfirlikləri qarşısında uzun növbələr yaranır və Ermənistan hökuməti bu problemi həll etməkdə aciz qalıb.



Mütəxəssislər isə bu problemin həllində Ermənistan hökumətinin cəhdlərini yersiz hesab edirlər. Onların fikrincə, əsas məsələ Ermənistanı tərk edən vətəndaşların sayının ilbəil artmasıdır. Səfirlik binalarının qarşısında uzun növbələrin başlıca səbəbi də məhz budur.

# “Sülh danışıqları tezliklə başlamayacaq”

Ukraynanın xarici işlər naziri Dmitri Kuleba hesab edir ki, Kiyev və Moskva arasında sülh danışıqları yaxın gələcəkdə gözlənilməmelidir.

Trend xəbər verir ki, bu barədə o, Ukrayna mediasına müsahibəsində bildirib. “Rusiya ilə danışıqların yaxın vaxtlarda başlayacağını düşünmürəm”, - deyə o bildirib və bunun üçün şərtlərdən birinin Ukrayna tərəfinin döyüş uğurları olması lazım olduğunu qeyd edib. Əks-hücumun yavaş tempinin tənqidindən danışan nazir “irəliyə getmək üçün həyatlarını riskə atan Ukrayna əsgərlərinə hörmətlə yanaşmağı” təklif edib.

*Qarabağın görkəmli simaları*

# Əlif Hacıyev (1953-1992)



Azərbaycanın Milli Qəhrəmanı, Xocalı soyqırımı şəhidi Əlif Lətif oğlu Hacıyev 1953-cü il iyunun 24-də Xocalı şəhərində doğulmuşdur.

1970-ci ildə məktəbi bitirərək, Xankəndi şəhərində sürücülük peşəsinə yiyələnmişdir. 1971-ci ildə ordu sıralarına çağırılmışdır. Hərbi xidməti Minsk şəhərində keçmişdir. 1973-cü ildə ordudan tərxis olunaraq, Xankəndi Avtonəqliyyat Müəssisəsində sürücü işləmişdir. 1974-1984-cü illərdə Belarusiya DİN-in və Azərbaycan SSR DQMV-nin daxili işlər orqanlarında müxtəlif vəzifələrdə işləmişdir. 1976-cı ildə SSRİ DİN-in Frunze adına Xüsusi Orta Milis Məktəbinə daxil olmuşdur. 1979-cu ildə həmin məktəbi bitirmiş, 1981-ci ildən təhsilini SSRİ DİN-in Akademiyasında davam etdirmişdir. DQMV-də işləyərkən uzun müddət fəaliyyət göstərən gizli millətçi mərkəzi ifşa etməyə çalışmışdır. Buna görə də erməni millətçiləri onu saxta ittihamlarla günahlandıraraq, 10 il həbs cəzasına məhkum etmişdilər. Ermənilər onun sırıqlısının cibinə saxta pul qoyaraq, əməliyyat qrupu təşkil edib, öz kabinetində həbs etdirdilər. Cəzasını çəkmək üçün Rusiyanın Nijni Tagil şəhərinə göndərilmişdir. 1987-ci ildə onun işinə yenidən baxılmış, 10 il həbs cəzası 6 ilə endirilmişdir. O, 1989-cu ilin fevral ayının 20-də əfv olunaraq azadlığa çıxmışdır.

Əlif Hacıyev 1990-cı ildə Xocalıya qayıdır və Dağlıq Qarabağ üzrə Təşkilat Komitəsində, Qarabağa Xalq Yardımı Komitəsində fəaliyyət göstərərək, erməni millətçilərinə qarşı mübarizəsini yenidən davam etdirir. O, 1990-cı ilin dekabr ayında daxili işlər orqanlarına yenidən bərpa olunur və Xocalı hava limanı xətt daxili işlər bölməsinə rəis təyin edilir. Eyni zamanda, Xocalı hava limanının komendantı olur. Gördüyü işlərinə görə 1991-ci ilin dekabr ayında ona mayor rütbəsi verilir.

Xocalı hava limanının strateji əhəmiyyətini başa düşən ermənilər hava limanını zor gücü ilə ələ keçirməyə çalışırlar. Bunun üçün Xankəndindən içərisində 100-ə yaxın erməni döyüşçüsünün olduğu iki avtobus gəlir. Ermənilər hava limanını mühasirəyə alır və axşam saat 10-a kimi oranı boşaltmaq üçün azərbaycanlılara vaxt verirlər. O zaman Xocalı hava limanında növbədə cəmi 30-a yaxın əməkdaş var idi. Hava limanını əldən verməmək üçün Əlif Hacıyev zirək üsul işlədir. O, hava limanının binasındakı otaqların birində səsgücləndiricinin qarşısına keçir və əmr verir ki, "filan batalyon filan cəbhəyə, filan batalyon filan cəbhəyə və s. keçsin". Ermənilər elə başa düşür ki, burada azərbaycanlılardan ibarət böyük bir polk var. Buna görə də hava limanını tərk etmək məcburiyyətində qalırlar.

1992-ci il fevralın 25-də Əlif Hacıyev və onun dəstəsi səhər saat 5-ə qədər düşmənə ciddi müqavimət göstərdilər. Amma döyüşlər qeyri-bərabər qüvvələr arasında gedirdi. O, həmin gecə meşədə sakinləri yola salıb geri qayıdanda, balaca bir oğlan uşağına papağını hədiyyə edib, ona demişdir: "Qayıtsam, papağımı qaytararsan. Yox, əgər qayıtmasam, papağımı yadigar saxlayarsan".

Əlif Hacıyev yenə gücünə, adamların etibarına və etimadına inanıb geri çəkilmədi. İlk növbədə dinc əhalini nisbətən təhlükəsiz yerə çatdırmağa cəhd göstərdi. Qanlı döyüş gecəsində adamların bir hissəsini Ağdamın Şelli kəndinə çatdıra bildi. Amma hələ də təhlükədə xeyli adam vardı və bu adamlar Əlif Hacıyevin yolunu gözləyirdi. Belə məqamda Hacıyev bir an belə dinclik tapmırdı, qətiyyətlə yenidən geriyə döndü. Avtomatın darağını dəyişərkən erməni gülləsi Əlif Hacıyevin qəlbinə sancılır.

Onun cəsədi Xocalıda 5 gün böyürtkən kolunun dibində qalmışdı. Onun Nazim adlı işçisi Hacıyev vurulanda böyürtkən kolunun dibində onun yerini rahatlayıb, sırıqlısını da üstünə örtmüşdü. Nazim oradan Əlif Hacıyevin cəsədini götürəndə ermənilərdən biri deyib ki: "Əgər bilsələr, bu, Əlifin meyididir, ermənilər onu sizə verməyəcəklər". Ona görə də o, Hacıyevin cəsədini maşında digər meyidlərin altında gizlədib gətirmişdi.

Bakının Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə mayor Əlif Lətif oğlu Hacıyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş, "Qızıl Ulduz" medalı ilə (ölümündən sonra) təltif edilmişdir.

Bakının Nizami rayonundakı küçələrdən biri onun adını daşıyır. Haqqında "Əlif. Xocalı" adlı sənədli film çəkilib.

**ELAN**

**"Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Baş ofisi 24 iyul 2023-cü il tarixindən etibarən öz fəaliyyətini Bakı şəhəri, Nərimanov rayonu, akademik Həsən Əliyev küçəsi 24 ünvanında davam etdirir.**

# Bakcell parkinq ödənişlərini sürətli etdi




Bakcell şirkəti abunəçilərinə parkinq ödənişlərini sürətli ödəmək imkanı yaradıb. Artıq abunəçilər parkinq xidmətini mobil balansdan ödəyə biləcəklər. Xidmətin aktivləşdirilməsi, deaktiv edilməsi sms vasitəsilə həyata keçiriləcək. Üstəlik, sms pulsuzdur. Qiymətlər müəyyən edilmiş tariflərə uyğun olaraq, minimum 30 qəpikdən başlayır.

Bakcell abunəçiləri avtomobilin qeydiyyat nişanı və parklanma məntəqəsinin nömrəsini 1181 qısa nömrəsinə SMS göndərərək parkinq zamanını başladacaqlar. Parkinqdən çıxarkən isə, "stop" yazıb 1181 qısa nömrəsinə SMS göndərmək kifayətdir.

Korporativ abunəçilər isə ödənişi yalnız AzParking tətbiqi vasitəsilə, həyata keçirə bilərlər.

Bakcell şirkəti "Bakcell ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir. Xatırladaq ki, şirkət "NEQSOL Holding"in tərkibinə daxildir.




**Azəri Light və Brent markalı neftin bir barelinin 24 avqust – 6 sentyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

# Mərkəzi Gömrük Hospitalı Tərtərdə şəhid və qazi ailələrinin üzvləri üçün tibbi sosial aksiya keçirib




Avqustun 25-də Tərtər Rayon Mərkəzi Xəstəxanasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının təşkilatçılığı, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin və Tərtər Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Ümummili Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş qazi və şəhid ailələrinin üzvləri üçün sosial tibbi aksiya keçirilib.

Tədbirin rəsmi açılış hissəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Milli Məclisin deputatı Sahib Alıyev, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov və Tərtər rayon Mərkəzi Xəstəxanasının direktoru Sərxan Cəlahani və digər rəsmi nümayəndələr iştirak ediblər.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini t.ü.f.d., dosent İsmayıl Əfəndiyev öz adından, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırovun, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədovun adından tədbir iştirakçılarını salamlayıb. O, bildirib ki, bu aksiyada Mərkəzi Gömrük Hospitalının yüksəkixtisaslı mütəxəssisləri 200-ə yaxın qazi və şəhid ailəsi üzvlərinin müayinəsini həyata keçirəcək.

Onların müayinəsi və müalicəsi üçün müasir tibbi avadanlıqlarla təchiz olunmuş mobil hospital və geniş çeşiddə dərmanlardan istifadə ediləcək. Bu məqsədlə Mərkəzi Gömrük Hospitalının USM, EKQ, EXO müayinələri, o cümlədən kardioloq, terapevt, uroloq, psixiatr, pediatr, nevroloq, mama ginekoloq, endokrinoloq, fizioterapevtdən ibarət 20 nəfərdən artıq tibb heyəti Tərtərə ezam olunub.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ölkəmizdə şəhid ailələrinə və qazilərə göstərilən yüksək diqqət və qayğıdan danışıb. Bildirilib ki, respubikamızın hər yerində olduğu kimi, Tərtər rayonunda da Ulu Ondər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilir. Bu gün Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Tərtərdə keçirdiyi tibbi aksiya da bu qəbildəndir. Mərkəzi Gömrük Hospitalının yüksəkixtisaslı mütəxəssislərinin Tərtərdə şəhid ailələri, qazilər, onların ailə üzvlərinin tibbi müayinəsinin həyata keçirilməsi çox xeyirxah bir missiyadır. Milli Məclisin deputatı Sahib Alıyev tibbi aksiyanın əhəmiyyətini yüksək qiymətləndirib, təşkilatçılara təşəkkürünü bildirib.

* * * *

### Mərkəzi Gömrük Hospitalı işğaldan azad olunmuş Talış kəndinin sakinləri üçün tibbi sosial aksiya keçirib

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin təşkilatçılığı, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin dəstəyi ilə Tərtər rayonunun işğaldan azad olunmuş Talış kəndində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş tibbi-sosial xeyriyyə aksiyası keçirilib.

Tədbirin rəsmi hissəsində çıxış edən Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, əməkdar həkim, ürək-damar cərrahı Rəşad Mahmudov bildirib ki, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsi tərəfindən işğaldan azad olunmuş ərazilərdə əhalinin zəruri tibbi xidmətlərlə təminatına dəstək məqsədilə ən yüksək texnologiyalar əsasında onların mütəmadi olaraq müayinələrinin həyata keçirilməsi nəzərdə tutulub.



Aksiyada Mərkəzi Gömrük Hospitalının kardioloq, terapevt, uroloq, psixiatr, pediatr, nevroloq, mama ginekoloq, endokrinoloq, fizioterapevtdən ibarət 20 nəfərdən artıq yüksəkixtisaslı tibb heyəti Talış kəndinin sakinlərini tibbi müayinələrdən keçiriblər.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev bildirib ki, Hospitalın yüksəkixtisaslı həkim briqadası aksiya çərçivəsində Talış kəndinin sakinlərini müayinə edib, USM, EKQ, EXO tibbi avadanlıqlar vasitəsilə səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub.

Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxsin icraçı direktorunun köməkçisi Vüsal Məmmədov Talış kəndində məskunlaşan əhalinin dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıb.

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əzizi
**ALİYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əzizi
**ALİYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Qorxmaz İmanov Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əzizi
**ALİYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əzizi
**ALİYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Arif Hüseynov Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əzizi
**ALİYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vahid Hümmətov Auditorlar Palatasının sədri, professor Vahid Novruzova əzizi
**ALİYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500